# "Rusiya yaxşı bilir ki, Azərbaycanda "Naqornıy Karabax" adlı ərazi yoxdur"

**"Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun Ayvazovskinin büstünün sökülməsi məsələsinə dair açıqlaması, TASS İnformasiya Agentliyində Azərbaycanın Xankəndi şəhərinin "Stepanakert" kimi yazılması RF tərəfindən ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizliyin növbəti təzahürüdür. Rusiyanın dövlət informasiya agentliyində bilərəkdən "Stepanakert" adından istifadə olunması dövlət səviyyəsində anti-Azərbaycan kampaniyasının davam etdirildiyini göstərir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. Bildirib ki, Rusiyanın rəsmi dövlət orqanları yaxşı bilirlər ki, Azərbaycanda "Stepanakert" adında bir inzibati ərazi yoxdur: "Bu şəhərin adı tarixən Xankəndi olub və torpaqlarımız işğaldan azad olunandan sonra tarixi ədalətsizlik bərpa edilərək doğma şəhərimizin tarixi adı qaytarılıb. Xankəndi Azərbaycanın suveren ərazisində yerləşir və hər bir dövlət öz ərazisindəki inzibati ərazilərin adlarını müstəqil şəkildə müəyyən edir. Bu baxımdan qaytarılmış tarixi adın təhrif edilməsi və ya separatçılığın yenidən qızışdırılması üçün belə təxribatyönümlü addımların atılmasını ancaq qeyri-dost addım hesab etmək olar. TASS tərəfindən Xankəndinin adının "Stepanakert" kimi qələmə verilməsi Azərbaycanın öz ərazilərində suverenliyini təmin etməsinin Rusiya tərəfindən hələ də həzm edilmədiyini göstərir".

Deputat bildirib ki, erməniəsilli rəssam İvan Ayvazovskinin (Hovanes Ayvasyan) büstünün Rusiya sülhməramlıları tərəfindən Azərbaycan tərəfinin icazəsi olmadan torpaqlarımızda quraşdırılması qanunsuz idi: "Bu, Azərbaycan Respublikasının suverenliyinə münasibətdə Rusiya tərəfindən hörmətsizlik idi. Rusiya sülhməramlıları noyabrın 10-da dövlət başçılarının imzaladığı üçtərəfli Bəyanata əsasən Qarabağa gəlmişdi. Sülhməramlıların Azərbaycanla razılaşdırılmadan hər hansı bir tikintinin aparılmasına icazəsi yox idi. Ayvazovskinin büstünün qoyulması və digər tikililərin ərazilərimizdə özbaşına inşa edilməsi qanunlarımıza və suverenliyimizə hörmətsizlik olub. Bu baxımdan Ayvazovskinin büstünün götürülməsi ölkəmizin qanunlarına uyğundur və buna görə də Rusiyanın narahat olmağına dəyməzdi".

A.Badamov vurğulayıb ki, Rusiya ərazilərimizdə mədəni dini abidələrin qorunmasını istəsəydi, torpaqlarımız 30 il işğal altında olduğu dövrdə ermənilər tərəfindən dağıdılaraq məhv edilən dini-mədəni abidələrimizlə bağlı bir xəbəri dərc edər və ya dövlət səviyyəsində rəsmi müraciət səsləndirərdi: "İşğal olunmuş ərazilərimizdə 67 məscidimizdən 65-i dağıdılaraq yerlə yeksan olundu. İki məsciddə isə donuz saxlanılaraq düşünülmüş şəkildə dini dəyərlərimizi təhqir etdilər. Qəbiristanlıqlarımız və mədəni abidələrimiz təhqir olunaraq dağıdıldı. Şuşada yerləşən Vaqifin məqbərəsi uçuruldu, Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün büstləri güllələbaran edilərək satışa çıxarıldı. Bütün bunları Rusiya görmürdümü? Bu hadisələr Rusiyanın gözü qarşısında baş verirdi. Rəsmi Moskva əgər ədalət nümayiş etdirmək istəsəydi, 30 il torpaqlarımız işğal altında olduğu dövrdə törədilmiş vandalizm hərəkətlərinə görə Ermənistana ən azından irad bildirərdi. Yalnız Paşinyan Praqada Qarabağın Azərbaycanın suveren ərazisi olduğunu bəyan edəndə Rusiya narahat olmağa başladı. Yəni əlindən gələni edərək separatçıları dəstəkləyərək Xankəndinin Azərbaycana qayıtmasının qarşısını almağa çalışdı. Amma Prezident İlham Əliyevin qətiyyətli siyasəti sayəsində torpaqlarımızda erməni separatizminin kökü kəsildi. Məhz torpaqlarımızdan erməni separatçılarının təmizlənməsi sayəsində sülhməramlı adı altında ərazilərimizə gəlmiş Rusiyanın hərbi kontingentinin görəcəyi bir işi qalmadı və o səbəbdən ərazilərimizi tərk etdilər".

Deputat vurğulayıb ki, Rusiya proseslərin gedişini və Azərbaycanın yaratdığı reallığı həzm edə bilmədiyindən "Stepanakert" adından istifadə etməklə anti-Azərbaycan təbliğatını davam etdirir: "Təkcə TASS "Stepanakert" adından istifadə etməklə kifayətlənmir. "Sputnik Armeniya"nın saytında "Naqornıy Karabax" bölməsinin saxlanılması da təxribat xarakterli hərəkətdir. Çünki Qarabağın Ermənistana heç bir aidiyyəti yoxdur. Rusiya yaxşı bilir ki, nə Azərbaycan, nə də Ermənistan ərazisində "Naqornıy Karabax" adında inzibati ərazi var".

İşğaldan azad edilmiş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradıldığını xatırladan A.Badamov hesab edir ki, bu baxımdan "Sputnik Armeniya"nın rəsmi saytında "Naqornıy Karabax" bölməsinin saxlanılması qəbuledilməzdir və bununla bağlı Rusiya XİN-ə növbəti etirazımızı bildirməliyik: "Mixail Şvıdkoyun Azərbaycanda Rusiya mədəniyyətinin guya "ləğv edilməsi" iddiaları növbəti yalandır. Qeyd etmək istəyirəm ki, ərazilərimizdə Rusiya mədəniyyətinə aid abidələr, rus teatrı, rus dilində nəşrlər, məktəblər fəaliyyətlərini davam etdirirlər. Amma Rusiyada 3 milyondan çox azərbaycanlı yaşadığı halda eyni hüquqlar soydaşlarımız üçün təmin olunmur. Təbii ki, Rusiya ədalətli mövqe gözləyirsə, burada əhalinin sayına görə paritet qorunub saxlanılmalıdır. Rusiya bu məsələni də diqqətdə saxlasın və bu istiqamətdə görülməli addımlardan danışsın. Əks halda Azərbaycanın rusdilli müəssisələrinin fəaliyyəti ilə bağlı paritetin qorunmasında diqqət etməli olduğunu düşünürəm".

Siyasətçi bildirib ki, Azərbaycan tərəfindən Rusiya ilə gərginliyin azaldılması və münasibətlərin yenidən normallaşdırılması istiqamətində addımların atılmasına baxmayaraq, RF-nin antiazərbaycançı qüvvələri hərəkətlərindən əl çəkmir və bu siyasəti gündəngünə dərinləşdirirlər. "Bu yanaşma iki ölkə arasında sağalmaz çat yarada bilər. Azərbaycan dövləti ölkəmizə qarşı edilmiş bütün tarixi ədalətsizliklərə baxmayaraq, etibarlı qonşu statusunu qoruyub saxlamağa çalışır. Rusiyadakı qüvvələr də bilməlidir ki, Azərbaycan müstəqil ölkədir və münasibətlərdə gərginliyin dərinləşməsinə aparan hərəkətləri davam etdirməklə ölkəmizi özündən uzaqlaşdırır".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 2 avqust (№159).- S.6.